# Əsaslı Kitabaxanın “Xidmət” şöbəsinin 2014-cü ıl ücün illik

# HESABATI

ADİU-nun əsaslı kitabxanasının xidmət şöbəsi Universitetinin tələbə və müəllim heyətinə xidmət göstərir. Universitetin Maliyyə, BİM, Uçot-iqtisad, Türk dünyası işlətmə, Kommersiya, Texnologiya və dizayn, Biznes inzibatçılığı, Əmtəəşünaslıq, İnformasiya və idarəetmə,İqtisadiyyat və Sənaye,Distant təhsili üzrə qiyabi fakültə, MBA, MM fakültələri əsas oxucu qrupunu təşkil edir. Tələbələr kitabxanaya şəxsiyyəti təsdiq edən sənədlə və tələbə bileti ilə üzv olunurlar.

Yeni dərs ilinin başlanması ilə əlaqədar, birinci kurs tələbələri üçün şöbənin əməkdaşları tərəfindən yeni oxucu kartoçkaları nömrələnərək qabaqcadan hazırlanır.Tələbələr dərslikləri alarkən kartoçkanın nömrəsi kitabın formulyarına və müddət vərəqəsinə yazılır. Tələbə formulyarı imzaladıqdan sonra kitabı götürə bilər.

Formulyar tələbənin kartoçkasına yerləşdirilir. Kitabxanaya üzv olan birinci kurs tələbələrinə kitabxanadan necə istifadə qaydaları haqqında məlumat verilir..

Dərsliklər tələbələrə bir semestr müddətinə verilir.

Fondumuz əsasən azərbaycan, rus, ingilis dillərində nəşr olunmuş kitablar təşkil edir.

Kitabxanamızın fondunda İqtisad, Sosial-ictimai elmlərlə,tarixşünaslığa, dilçiliyə, tənqid və bədii ədəbiyyata, hüquq elmlərinə, incəsənətə, dinə və başqa elm sanələrinə aid olan kitablar komplektləşdirilmişdir.

2014-cü ildə ADİU-nə 4535 nəfər qəbul olmuşdur. Bunlardan əyani şöbəsinə 2890, qiyabi şöbəsinə 408, M.M və MBA-1237 nəfər qəbul olmuşdur.

Bunlardan birinci kurs əyani şöbəyə 459 nəfər, qiyabi şöbəyə 31nəfər, ikinci kurs əyani şöbəyə 239 nəfər, qiyabi şöbəyə 11, ücüncü kurs əyani şöbəyə 79 nəfər, qiyabi şöbəyə 15 nəfər, dördüncü kurs əyani şöbəyə 32 nəfər, qiyabi şöbəyə 7

nəfər tələbə, M.M və MBA-ya 160 nəfər magistr, müəllim və işçi heyyətindən 218 nəfər kitabxanaya üzv yazılmışdır.

2014- cü tədris ilində bir çox dərsliklərin fonda olmadığına və yaxud az nüsxədə olduğuna görə oxuculara rədd cavabı verilir.

Yola saldığımız təhsil ilində əyani şöbəni 2491, qiyabi şöbəni 769 nəfər , M.M və MBA-nı 617 nəfər bitirmişdir.

2014-cü ıldə şöbəyə alınmış yeni ədəbiyyatın ümumi sayı 1787 nüsxə olmuşdur. Bunlardan 1700 azərbaycan dilində, 87 nüsxə rus dilində olmuşdur.

Şöbəyə alınmış çap məhsularından 798 nüsxə elmi,915 nüsxə tədris, 60 nüsxə bədii, 14 nüsxə bədii ədəbiyyat fonda daxil edilmişdir.

Yola saldığımız təhsil ilində borcu olan tələbələrin siyahısı tərtib edilərək dekanlığa verilmişdir.

Bunlardan 2586 nəfərə arayış verilmişdir. Cari ildə oxucular tərəfindən 45 nüsxə kitab itirilmişdir. İtirilmiş kitablar latın qrafikası ilə çap olunmuş dərsliklərlə əvəz olunmuşdur.

Cari ildə kitabxanadan istifadə etmiş oxucuların ümumi sayı 6508 olmuşdur. Bunlardan 5070 nəfəri tələbə, 1438 professor-müəllim və işci heyətidir.

2014-cü ildə abonementi üzrə tələbələrə kitab verlişinin ümumi sayı 11438 olmuşdur. Kitabxaya gəliş 15474 nəfər olmuşdur.

2014-cü tədris ilındə bir çox dərsliklərin fondda olmadığina və yaxud az nüsxdə olduğuna ğörə oxuculara rədd cavabi verilir.

Bu dərsliklərin siyahısı tutularaq Nəşriyyata təqdim olunur. Nəşriyyatda həmin ədəbiyyatlar cap olunub, kitabxanaya verilir.

**“Xıdmət” şöbəsinin müdiri :** **Tagiyeva S.Ə.**